# BALALARA HƏDİYYƏ

## QAMMALARIN İFA METODİKASI VƏ BARMAQ ARDICILLIĞI

**Azərbaycan qarmon ifaçılığı və tədrisi tarixində ilk dəfə**

**(SAĞ VƏ SOL ƏL)**

## QAMMA = YENİ DÖVR

Sol əlin ilk dəfə fərqli müşayiəti və ifası
Yeni beynəlxalq uğurlar
Yeni üslub, yanaşma, bəstə, repertuar, metodika, elmi işlər, dərslik və s.
Sol əldə barmaqların beşinin də rahat formada istifadəsi
Beyin və barmaqların xüsusi hazırlığı
Müxtəlif işlərin eyni anda həyata keçirilməsi
Barmaqların onunun da rahat istifadəsi

## DÜZGÜN YANAŞMA, İNAM, SƏBR!

© Sübhan Köçərli

**Firidun bəy Köçərli "Balalara hədiyyə" 1912 – ci il (Azərbaycan folkloruna aid toplu)**

**Sübhan Köçərli "Balalara hədiyyə" 2021 – ci il (Qammaların ifa metodikası və barmaq ardıcıllığı)**

***Sumqayıt, «Azəri» poliqrafiya, 2021, 40 səhifə.***

***Bu metodika Azərbaycan qarmon ifaçılığı və tədrisində ilk dəfə olduğuna görə qarmon müəllimləri üçün nəzərdə tutulub. Lakin onu da qeyd edim ki, uşaq incəsənət məktəbində bu metodikanın tədrisinə artıq başlanılıb. Bu isə Azərbaycan qarmon ifaçılığı və tədrisi tarixində önəmli və əlamətdar hadisədir.***

$$D\frac{525000-857}{907-09}M$$

*"Azəri" poliqrafiya*

# MÜƏLLİFDƏN

Bildiyiniz kimi, qarmon Rusiyadan Azərbaycana gətiriləndən sonra ustadlarımız tərəfindən milli musiqimizə uyğun olaraq qarmon üzərində mühüm təkmilləşmə işi aparılır ki, elə ilk təkmilləşmə sol gövdədəki səslərlə bağlı olur. Yəni sağ tərəfdə olduğu kimi, sol gövdədə də həmin ardıcıllıqdan və eyni səslərdən ibarət Azərbaycan qarmonu meydana gətirilir (səh: 23,28). Bildiyiniz kimi ifaçılar həmin sol tərəfdəki səslər vasitəsilə dəmkeşin funksiyasını yerinə yetirərək öz ifalarına dəm (züy) saxlayırlar (səh:48). Ancaq zaman – zaman isə sol əlin sağ əllə eyni vaxtda ifası bəzi böyük sənətkarlar tərəfindən tədricən inkişaf etdirilərək müəyyən mənada həyata keçirilməyə başlayıb. O cümlədən bu yöndə dərsliklərin də xüsusi rolunun olduğunu qeyd etməliyik. Lakin sizin diqqətinizi bir neçə mühüm məsələyə yönəltmək istəyirəm. Belə ki, bayaq da qeyd etdiyim kimi, dedik ki, sol əldə dəmlə yanaşı sol əlin müşayiəti də zaman - zaman müəyyən ifaçılar tərəfindən müəyyən mənada həyata keçirilib və dərsliklərdə də bu sahə üzrə müəyyən mənada iş aparılıb. Lakin həmin dərsliklərdə, mənbələrdə "İndiyə qədər qarmon ifaçılığı sənətində melodiyaların sol əldə müşayiəti təcrübəsindən az istifadə olunmuşdur. Belə ki, ifaçıların böyük əksəriyyəti sol klaviaturaya dəm tutmaq üçün müraciət edir, ya da melodiyanı çox sadə şəkildə unison yolu ilə müşayiət edirlər. İfaçıların bəziləri nadir hallarda sadə akkordlardan istifadə edir, melodiyaları iki səsli çalırlar". "Baş barmaq ifaçı barmaq sayılmır. O yalnız körüyün yığılmasında iştirak edir. O biri barmaqlar isə müvafiq sürətdə melodiyaların müşayiətində eyni dərəcədə iştirak edirlər" (s.23),"Qarmonun sol klaviaturasının cəmi üç, bəzi hallarda dörd barmaqla çalınır" (s.8), "Əsasən üç barmaqla çalınmaq üçün nəzərdə tutulur. Yüksək ifaçılıq qabiliyyətinə malik olan yuxarı sinif şagirdləri müstəsna halda birinci və beşinci barmaqlardan istifadə edə bilər (2,3,4) " (s.4; s.8), " Azərbaycan qarmonunun sol əl üçün "yığma" akkordları yoxdur. Onların əvəzinə gövdədə iki sırada yerləşən (18 tonlu ağ və 12 yarımtonlu qara) düymələrdən istifadə edirlər. Onları basarkən unison səslər və ya 2-3 səsli akkordlar alınır", "Sol əlin 3 və ya 4 barmağı uyğun tonallıqda dəmsaz (pedal) not saxlayır" (s. 67,68), "Qarmonun sol tərəflə müşayiəti zamanı beşinci (çeçələ) barmaqdan istifadə etmək olmur. Əsasən üç barmaq (2- ci, 3-cü, 4-cü barmaq) bu işdə əsas rol oynayır. Birinci barmaqdan (baş barmaq) nadir hallarda və çox çətinliklə istifadə olunur" (s.379; s.695). "Düzdür qarmonun sol klaviaturasının sağ əli müşayiət etmək üçün imkanı azdır, buna baxmayaraq etüd, pyes və bəzi əsərlər çalınarkən ən sadə (iki və üç səsli) akkordlardan istifadə etmək olar" (s.25) kimi fikirlər öz əksini tapır. Bu səbəbdən də təqdim olunan nümunələr də (istər bu nümunələr sol əl üçün verilmiş məşğələlər olsun (s.27,28; s.32,33,34; s.25,28 və s.), istərsə də sol əl üçün verilmiş müşayiətlər olsun) qarmonun imkanları ilə müqayisədə olduqca sadə və passivdir. Sadə və passivliklə bərabər üstəlikdə ya


© Sübhan Köçərli

davamlı olaraq həyata keçirilməyib və keçirilmir ya da tam həcmdə yəni əvvəldən sona kimi həyata keçirilməyib və keçirilmir. Digər hallarda isə sol əl istifadəsiz qalır (o cümlədən muğamlarımızda da).Yalnız körüyün açılıb bağlanmasında iştirak edir. Sol əlin sadə və passiv müşayiətinin özü belə (davamlı və ya tam həcmdə olmasa da) demək olar ki, yalnız akkord vasitəsilə və yaxud da qeyd etdiyim kimi digər sadə və passiv formada həyata keçirilən müşayiətlərdir. Sol əlin müşayiəti dedikdə yalnız akkord vasitəsiylə müşayiət və yaxud da hər hansısa sadə, passiv forma nəzərdə tutula bilməz. Qarmonun imkanları, ifaçının isə sol əldə barmaqlarının beşinində rahat formada istifadəsi bunu deməyə əsas verir. O cümlədən qeyd olunan "sağ və sol əlin imkanları nəzərə alınmışdır", "praktikada sol əlin passiv mövqeyini fəallaşdırmaq üçün sol əl partiyaları daha geniş verilmişdir" (s.3) və s. bu kimi fikirlər də nə verilən məşğələlərdə, nə də əsərlərdə, ifalarda, demək olar ki, öz əksini tapmır və ciddi dəyişikliyə rast gəlinmir. Tam həcmdə həyata keçirilməməsinin səbəbi isə ifaçıların iki işi eyni anda görə bilməməsidir. İfa zamanı sağ əldə bir balaca çətin xanə olan kimi sol əlin müşayiəti ya dayanır, ya da həmin xanə ötəri səsləndirilir. Davamlı olaraq həyata keçirilməməsinin səbəbi isə sol əlin istifadəsinin ifaçılar üçün öndə duran bir məsələ olmamasıdır. Ifaçıların repertuarları, təqdim etdikləri bu fikirləri deməyə əsas verir. Sol əlin müşayiəti körüklü alətlərin ayrılmaz bir hissəsidir. Bu da öz növbəsində heç kimin müşayiəti olmadan özü – özünü təqdim etmək qabiliyyəti deməkdir ki, bu da körüklü alətlərin özlərinə məxsus cəhətlərindəndir. Əlbəttə ki, bunlar isə Azərbaycan qarmonunun beynəlxalq aləmdə özü - özünü ifadə etməsinə təsirsiz ötüşə bilməz. Çünki özünü necə ifadə edəcəyindən asılı olaraq sənin kimliyin, olacağın yer, məqamın təyin edilir. Körüklü alətlərin hərəsinin özünə məxsus xarakteri, xasiyyəti, keyfiyyətləri, məxsus olduğu məkanları, danışıq dilləri var. Lakin necə ki, sol əl bədənimizin ayrılmaz bir hissəsidir o cümlədən də sol əlin müşayiəti də körüklü alətlərin ayrılmaz bir hissəsidir. Lakin Azərbaycan qarmonunun imkanları və sol əldə barmaqların beşinin də rahat formada istifadəsi ifaçıya fərqli formalarda, daha da mürəkkəb, dolğun şəkildə müşayiət üçün şərait yaradır. Bu isə Azərbaycan qarmonunun geniş imkanları deməkdir. Bütün bu qeyd olunanları nəzərə alıb Azərbaycan qarmon ifaçılığında sol əlin ifası həyata keçirilir desək yanlış olar. Çünki başa düşənlər üçün natamam iş ilə kamil iş, arada – sırada görülən iş ilə davamlı iş, bilən ilə bilməyən eyni deyil. Eyni zamanda qeyd olunan amillər Azərbaycan qarmonunda sol əlin istifadəsi mövzusunda problemin həllinə, təkmilləşməyə və Azərbaycan qarmon ifaçılığında yeni metodikaya ehtiyacın olduğunu göstərir. Bu səbəbdən sizlərə Azərbaycan qarmon ifaçılığı və tədrisi tarixində ilk dəfə olaraq qammaların sağ və sol əllə eyni anda müxtəlif istiqamətlərdə və fərqli barmaq ardıcıllıqlarından ibarət ifa metodikasını özündə əks etdirən metodik vəsait təqdim edirəm. Qammaların sağ və sol əllə eyni anda ifası barədə mədəniyyət jurnalında da "Azərbaycan qarmonunun solu:


© Sübhan Köçərli

ifaçılığında yeni üslub" adlı elmi məqaləm işıq üzü görüb (s.91). Eyni zamanda 29 - 30 aprel 2021-ci il tarixində Bakı Musiqi Akademiyasının 100 illiyi çərçivəsində Etnoorqanologiya: Aktual problemlər və vəzifələr mövzusunda Beynəlxalq Elmi – Praktiki Konfransda bu barədə həm nəzəri, həm də təcrübi olaraq çıxış etmişəm. Qammaların sol əldə ifası ifaçının sol əldə barmaqların beşinin də rahat formada istifadəsi və lazım olan vəziyyətə, manevrə hazır olmasına real zəmin yaradır. Bildiyiniz kimi qammaların sağ və sol əllə eyni anda ifası ifaçının əllərinin biri - birinə əks olaraq (düz və əks hərəkətdə) hərəkət etməsi deməkdir. Qammaların sağ və sol əllə eyni anda ifası (tersiyalarla) hər iki əldə eyni anda müxtəlif barmaq ardıcıllığından istifadə deməkdir. Qammaların sağ və sol əllə eyni anda ifası (tersayalarla düz və əks hərəkətdə) ifaçının eyni anda həm hər iki əldə müxtəlif barmaq ardıcıllığından istifadəsi, həm də eyni anda hər iki əlin biri - birinə əks istiqamətdə hərəkəti deməkdir. Minorda (melodik hal) isə qeyd olunanlarla bərabər eyni zamanda da bir əlin natural, digərinin isə eyni anda melodik hal ifa etməsi deməkdir. Qammaların ifası sol biləyin və barmaqların düzgün vəziyyət alması deməkdir. Sol biləyin və barmaqların hansı formanı almasını təyin edən sol gövdədə yerləşən səslərin neçə cərgə və hansı formada, ardıcıllıqda olmasıdır. Deməli hər bir körüklü alətdə sol əlin özünə məxsus istifadə forması, duruş qaydası var. O cümlədən Azərbaycan qarmonunda. Bütün bunlar isə düzgün bilək və barmaq forması, ifaçıda barmaqların onunun da rahat formada istifadəsi və müxtəlif işləri eyni anda həyata keçirməsi kimi mühüm qabiliyyətinin formalaşması deməkdir. Bu isə o deməkdir ki, ifaçı istər beyin olaraq, istərsə də barmaqlar baxımından hazır və dözümlü ola biləcək. Çünki qammaların sağ və sol əllə eyni anda ifası eyni zamanda ifaçıda möhkəm dözüm, iradə, səbr formalaşdırır. Bu isə gördüyünüz kimi nəticədə xüsusi hazırlıqlı bir ifaçı yetişməsi deməkdir. Bu da öz növbəsində yeni yanaşmaların, ifa formalarının, repertuarların, dərsliklərin, elmi işlərin, metodikaların və s. meydana gəlməsini qaçılmaz edir. Eyni zamanda da təqdim etdiyim metodika sol əlin qeyd etdiyimiz formada müşayiəti ilə yanaşı həm də sol əlin sağ əllə eyni anda ifasının mümkünlüyünə səbəb olur (yəni sağ əldə bir musiqi eyni anda da sol əldə başqa musiqinin ifası - Təzadlı polifoniya. Körüklü alətlər arasında dünyada ilk dəfə olaraq bu formada ifanı həyata keçirtmişəm. Sağ əldə "Libertango", eyni anda sol əldə isə "Happy Brithday to you". Dünyada ilk dəfə olduğu üçün Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi tərəfindən müəlliflik hüquqları qorunur. Həmin ifa və digər bir neçəsi Azərbaycan Dövlət Televiziya və Radiosunun Səs Yazma Evi tərəfindən lentə alınıb (Sol əlin müşayiəti ilə tək qarmonda). Bütün bunlar isə Azərbaycan qarmon ifaçılığı tarixində yeni dövr deməkdir. Yəni düstur olaraq göstərməli olsaq QAMMA = YENİ DÖVR.


© Sübhan Köçərli

## Giriş

Qammalar sizlərə **“TƏK SOL ƏLDƏ”,** sağ və sol əllə eyni anda yəni **“DÜZ VƏ ƏKS HƏRƏKƏTDƏ”, “TERSİYALARLA”** və **“TERSİYALARLA DÜZ VƏ ƏKS HƏRƏKƏTDƏ”** təqdim olunacaq.

### TƏK SOL ƏLDƏ

Bəzi hallar istisna olmaqla sol əldə barmaqların ardıcıllığı sağ əldə istifadə olunan barmaq ardıcıllığı ilə eynidir. Şagird sadəcə sağ əldə qammaları öyrəndikcə onları sol ələ tətbiq edəcək. Yəni, şagird sağ əldə ifa etdiyi qammanı sol əldə təkrar həmin ardıcıllıqla ifa edəcək. Necə ki, ifaçı sağ əlin inkişafı və hazır vəziyyətə gətirilməsi üçün asandan tədricən çətinə və astadan tədricən itiyə prinsipinə əsaslanırsa, sol əl də həmin qayda əsasında formalaşmalıdır. Sol əlin həm də körüyün açılıb bağlanmasında iştirak etməsi sol biləyin və barmaqların rahat istifadəsinə bir neçə səbəbdən müəyyən maneələr yarada bilər. Lakin həmin maneələrin aradan qaldırılması və sol biləyin, barmaqların rahat istifadəsi mümkündür. Bunun üçünsə xüsusi və əlavə istedada deyil, **düzgün yanaşmaya, inama, səbrə ehtiyac var.**

### DÜZ VƏ ƏKS HƏRƏKƏTDƏ

Qammaların düz və əks hərəkətdə ifası zamanı əllər eyni anda biri-birinə əks istiqamətdə hərəkət edəcək. Bir əl düz istiqamətdə hərəkət edərkən eyni anda digər əl isə ona əks istiqamətdə hərəkət edəcək. I oktava həcmində ifası mümkün olan qammalarda sağ əl düz, sol əl isə ona əks olaraq hərəkət edəcək. Bütün qammaların düz və əks hərəkətdə ifası zamanı hər iki əldə eyni barmaq ardıcıllığından istifadə olunacaq. I oktava həcmində ifası mümkün olan qammaların düz və əks hərəkətdə ifası belə olacaq:




© Sübhan Köçərli

II oktava həcmində ifası mümkün olan qammalarda isə sağ əl düz sol əl əks sol əl düz sağ əl əks ifa edəcək. II oktava həcmində ifası mümkün olan qammaların düz və əks hərəkətdə ifası belə olacaq (xromatik qamma da qeyd olunan formada ifa olunacaq):



Gördüyünüz kimi hər iki nümunədə məqsəd eyni anda əllərin biri – birinə düz və əks hərəkətidir ki, o da hər iki nümunədə öz əksini tapır. Məqsəd hər ikisində eynidir. Yəni qammaların DÜZ VƏ ƏKS HƏRƏKƏTDƏ ifası.

## TERSİYALARLA

Qammaların tersiyalarla ifası zamanı hər iki əl eyni istiqamətdə hərəkət edəcək. Sağ əldə səslənən qammanın eyni anda sol əldə tersiyaları ifa olunacaq. Yəni qammaların TERSİYALARLA ifası. Do və Sol major qammalarından başqa digər bütün qammalarda hər iki əldə eyni anda fərqli barmaq ardıcıllığından istifadə olunacaq:






© Sübhan Köçərli

# TERSİYALARLA DÜZ VƏ ƏKS HƏRƏKƏTDƏ

Tersiyalarla ifa dedikdə qeyd etdik ki, sağ əldə səslənən qammanın eyni anda sol əldə tersiyaları ifa olunacaq və hər iki əl eyni istiqamətdə hərəkət edəcək. İndi isə hər iki əl eyni istiqamətdə deyil, biri – birinə əks olaraq hərəkət edəcək. Yəni qammaların bundan öncə təqdim etdiyimiz tersiyalarla ifası indi düz və əks hərəkətdə ifa olunacaq. II oktava həcmində ifası mümkün olan qammaların TERSİYALARLA DÜZ VƏ ƏKS HƏRƏKƏTDƏ ifası belə olacaq:



I oktava həcmində ifası mümkün olan qammaların tersiyalarla düz və əks hərəkətdə ifası belə olacaq:



| | |
|---|---|
| **Düz və əks hərəkətdə** | 1. Əllərin biri – birinə əks hərəkəti<br>2. Hər iki əldə eyni barmaq ardıcıllığı |
| **Tersiyalarla** | 1. Sağ əldə səslənən qammanın sol əldə tersiyaları ifa olunacaq<br>2. Əllərin eyni istiqamətdə hərəkəti<br>3. Hər iki əldə fərqli barmaq ardıcıllığı |
| **Tersiyalarla düz və əks hərəkətdə** | 1. Sağ əldə səslənən qammanın sol əldə tersiyaları ifa olunacaq<br>2. Əllərin biri – birinə əks hərəkəti<br>3. Hər iki əldə fərqli barmaq ardıcıllığı |

Yuxarıda qeyd olunanlar minor qammalarına da aiddir.

Gördüyünüz kimi qammanın bir halı (natural hal, harmonik hal, melodik hal) üç formada ifa olunacaq. Bir dəfə düz və əks hərəkətdə, bir dəfə tersiyalarla, bir dəfə də tersiyalarla düz və əks hərəkətdə. Yəni natural hal 3, harmonik hal 3, melodik hal 3.


© Sübhan Köçərli

Bu isə o deməkdir ki, bir major qamması 3 (natural), bir minor qamması isə 9 dəfə (natural, harmonik, melodik) ifa ediləcək.

**CƏDVƏL 1**

| S/S | Major | Hal | Düz və əks hərəkətdə | Tersiyalarla | Tersiyalarla düz və əks hərəkətdə | Nəticə |
|---|---|---|---|---|---|---|
| 1 | Do | Natural | 1 | 1 | 1 | 3 |
| 2 | Sol | Natural | 1 | 1 | - | 2 |
| 3 | Fa | Natural | 1 | 1 | 1 | 3 |
| 4 | Re | Natural | 1 | 1 | 1 | 3 |
| 5 | Si bemol | Natural | 1 | 1 | 1 | 3 |
| 6 | Lya | Natural | 1 | 1 | 1 | 3 |
| 7 | Mi bemol | Natural | 1 | 1 | 1 | 3 |
| 8 | Mi | Natural | 1 | 1 | 1 | 3 |
| 9 | Lya bemol | Natural | 1 | 1 | 1 | 3 |
| 10 | Si | Natural | 1 | 1 | 1 | 3 |
| 11 | Re bemol | Natural | 1 | 1 | 1 | 3 |
| | | | | | **YEKUN :** | **32** |

**CƏDVƏL 2**

| S/S | Minor | Hal | Düz və əks hərəkətdə | Tersiyalarla | Tersiyalarla düz və əks hərəkətdə | Nəticə |
|---|---|---|---|---|---|---|
| 1 | Lya | Natural | 1 | 1 | 1 | 3 |
| | | Harmonik | 1 | 1 | 1 | 3 |
| | | Melodik | 1 | 1 | 1 | 3 |
| 2 | Mi | Natural | 1 | 1 | 1 | 3 |
| | | Harmonik | 1 | 1 | 1 | 3 |
| | | Melodik | 1 | 1 | 1 | 3 |
| 3 | Re | Natural | 1 | 1 | 1 | 3 |
| | | Harmonik | 1 | 1 | 1 | 3 |
| | | Melodik | 1 | 1 | 1 | 3 |


© Sübhan Köçərli

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 4 | Si | Natural | 1 | 1 | 1 | 3 |
| | | Harmonik | 1 | 1 | 1 | 3 |
| | | Melodik | 1 | 1 | 1 | 3 |
| 5 | Sol | Natural | 1 | 1 | - | 2 |
| | | Harmonik | 1 | 1 | - | 2 |
| | | Melodik | 1 | 1 | - | 2 |
| 6 | Fa diyez | Natural | 1 | 1 | - | 2 |
| | | Harmonik | 1 | 1 | - | 2 |
| | | Melodik | 1 | 1 | - | 2 |
| 7 | Do | Natural | 1 | 1 | 1 | 3 |
| | | Harmonik | 1 | 1 | 1 | 3 |
| | | Melodik | 1 | 1 | 1 | 3 |
| 8 | Do diyez | Natural | 1 | 1 | 1 | 3 |
| | | Harmonik | 1 | 1 | 1 | 3 |
| | | Melodik | 1 | 1 | 1 | 3 |
| 9 | Fa | Natural | 1 | 1 | 1 | 3 |
| | | Harmonik | 1 | 1 | 1 | 3 |
| | | Melodik | 1 | 1 | 1 | 3 |
| 10 | Sol diyez | Natural | 1 | 1 | - | 2 |
| | | Harmonik | 1 | 1 | - | 2 |
| | | Melodik | 1 | 1 | - | 2 |
| 11 | Si bemol | Natural | 1 | 1 | 1 | 3 |
| | | Harmonik | 1 | 1 | 1 | 3 |
| | | Melodik | 1 | 1 | 1 | 3 |
| | | | | | **YEKUN :** | **90** |

Onu da qeyd edim ki, təqdim etdiyim qammaların bu formada ifa metodikasının tədrisinə ilk dəfə Abşeron rayon Ceyranbatan qəsəbə Uşaq İncəsənət Məktəbində başlanılıb (Qarmon müəllimi Elsevər Qafarov, şagird Ülvi Seyfullazadə). Gördüyünüz kimi qammaların ifası sol əldə barmaqların beşinin də (ümumilikdə isə onununda) rahat formada istifadəsi və bir neçə müxtəlif işin eyni anda həyata keçirilməsi deməkdir. Qammaların ifası sol əlin ilk dəfə olaraq fərqli müşayiəti və ifası, barmaqların onunun da rahat istifadəsi və lazımi vəziyyətə hazır olması, müxtəlif işlərin eyni anda həyata keçirilməsi, beynin və barmaqların xüsusi hazırlığı, yeni metodika, dərslik, elmi işlər, üslub, bəstə, repertuar, yeni beynəlxalq uğurlar və s. kimi yeni qapıların açılması deməkdir. Əlbəttə ki, **DÜZGÜN YANAŞMA, İNAM, SƏBR OLARSA.**


© Sübhan Köçərli

## Sol əldə barmaqların ardıcıllığı

### Do major



Yuxarıda qeyd olunan barmaq ardıcıllığından Lya minor, Sol major (Mi minor), Re minor, Re major (Si minor), Sol minor, Lya major, Do minor, Mi major, Si major qammalarında da istifadə olunacaq.

### Fa major (Minor)



### Si bemol major (Minor)



### Fa diyez minor

**Harmonik**




© Sübhan Köçərli

**Melodik**




## Mi bemol major




## Do diyez minor

**Harmonik**




**Melodik**




## Lya bemol major (Sol diyez minor)




## Re bemol major





© Sübhan Köçərli

# ARPECİO

## Do major







**Yuxarıda qeyd olunan barmaq ardıcıllığından Lya minor, Sol major (Mi minor), Fa major (Re minor), Re major (Si minor), Sol minor, Lya major, Do minor, Mi major, Fa minor, Si major qammalarında da istifadə olunacaq.**

## Mi bemol major







**Yuxarıda qeyd olunan barmaq ardıcıllığından Si bemol major, Do/Fa diyez minor, Lya bemol major (Sol diyez minor), Re bemol major qammalarında da istifadə olunacaq.**

## Si bemol minor





© Sübhan Köçərli

# DÜZ VƏ ƏKS HƏRƏKƏTDƏ

## MAJOR

**QEYD: Xatırladım ki, Qammaların DÜZ VƏ ƏKS HƏRƏKƏTDƏ ifası zamanı əllər eyni anda biri – birinə əks istiqamətdə hərəkət edəcək. Bir əl düz istiqamətdə hərəkət edərkən eyni anda digər əl isə ona əks istiqamətdə hərəkət edəcək. Hər iki əldə eyni barmaq ardıcıllığından istifadə olunacaq.**

### Do major



### Sol major




© Sübhan Köçərli

## Fa major



## Re major



## Si bemol major




© Sübhan Köçərli

# Lya major



# Mi bemol major



# Mi major




© Sübhan Köçərli

## Lya bemol major



## Si major



## Re bemol major




© Sübhan Köçərli

## TERSİYALARLA

**QEYD: Xatırladım ki, Qammaların TERSİYALARLA ifası zamanı hər iki əl eyni istiqamətdə hərəkət edəcək. Sağ əldə səslənən qammanın eyni anda sol əldə tersiyaları ifa olunacaq. Yəni qammaların TERSİYALARLA ifası. Do və Sol major qammalarından başqa digər bütün qammalarda hər iki əldə eyni anda fərqli barmaq ardıcıllığından istifadə olunacaq.**

### Do major



### Sol major



### Fa major



### Re major




© Sübhan Köçərli

## Si bemol major



## Lya major



## Mi bemol major



## Mi major



## Lya bemol major




© Sübhan Köçərli



## Si major



## Re bemol major




© Sübhan Köçərli

## TERSİYALARLA DÜZ VƏ ƏKS HƏRƏKƏTDƏ

**QEYD: Xatırladım ki, TERSİYALARLA ifa dedikdə qeyd etdik ki, sağ əldə səslənən qammanın eyni anda sol əldə tersiyaları ifa olunacaq və hər iki əl eyni istiqamətdə hərəkət edəcək. İndi isə adından da göründüyü kimi yenə də tersiyalarla (sağ əldə səslənən qammanın eyni anda sol əldə tersiyaları ifa olunacaq) ifa olunacaq. Lakin hər iki əl eyni istiqamətdə deyil biri – birinə əks olaraq hərəkət edəcək. Yəni qammaların bundan öncə təqdim etdiyimiz tersiyalarla ifası indi düz və əks hərəkətdə ifa olunacaq.**

### Do major



### Fa major



### Re major




© Sübhan Köçərli

## Si bemol major



## Lya major



## Mi bemol major



## Mi major



## Lya bemol major




© Sübhan Köçərli

# Si major



# Re bemol major





© Sübhan Köçərli

# DÜZ VƏ ƏKS HƏRƏKƏTDƏ

## MİNOR

### Lya minor

**Hər 3 halda eyni barmaq ardıcıllığından istifadə olunacaq.**



### Mi minor

**Hər 3 halda eyni barmaq ardıcıllığından istifadə olunacaq.**



### Re minor

**Hər 3 halda eyni barmaq ardıcıllığından istifadə olunacaq.**




© Sübhan Köçərli

## Si minor

**Hər 3 halda eyni barmaq ardıcıllığından istifadə olunacaq.**



## Sol minor

**Hər 3 halda eyni barmaq ardıcıllığından istifadə olunacaq.**



## Fa diyez minor

**Harmonik**



**Melodik**




© Sübhan Köçərli



## Do minor

**Hər 3 halda eyni barmaq ardıcıllığından istifadə olunacaq.**



## Do diyez minor

**Harmonik**



**Melodik**




© Sübhan Köçərli

## Fa minor

**Hər 3 halda eyni barmaq ardıcıllığından istifadə olunacaq.**



## Sol diyez minor

**Hər 3 halda eyni barmaq ardıcıllığından istifadə olunacaq.**



## Si bemol minor

**Hər 3 halda eyni barmaq ardıcıllığından istifadə olunacaq.**




© Sübhan Köçərli

# TERSİYALARLA

## Lya/Mi minor

### Harmonik



### Melodik



## Re minor

### Natural



### Harmonik



### Melodik




© Sübhan Köçərli

## Si minor

### Harmonik



### Melodik



## Sol minor

### Natural



### Harmonik



### Melodik





© Sübhan Köçərli

# Fa diyez minor

## Harmonik



## Melodik



# Do minor

## Natural



## Harmonik



## Melodik




© Sübhan Köçərli

## Do diyez minor

### Harmonik



### Melodik



## Fa minor

**Hər 3 halda eyni barmaq ardıcıllığından istifadə olunacaq.**



## Sol diyez minor

**Hər 3 halda eyni barmaq ardıcıllığından istifadə olunacaq.**



## Si bemol minor

**Hər 3 halda eyni barmaq ardıcıllığından istifadə olunacaq.**




© Sübhan Köçərli

# TERSIYALARLA DÜZ VƏ ƏKS HƏRƏKƏTDƏ

## Lya minor

### Harmonik



### Melodik



## Mi minor

### Harmonik



### Melodik




© Sübhan Köçərli

# Re minor

## Natural



## Harmonik



## Melodik




© Sübhan Köçərli

## Si minor

### Harmonik



### Melodik



## Do minor

### Natural



### Harmonik




© Sübhan Köçərli

## Melodik



# Do diyez minor

## Harmonik



## Melodik





© Sübhan Köçərli

## Fa minor

**Hər 3 halda eyni barmaq ardıcıllığından istifadə olunacaq.**



## Si bemol minor

**Hər 3 halda eyni barmaq ardıcıllığından istifadə olunacaq.**




© Sübhan Köçərli

## ARPECİO

**Do major**



**Digər II oktava həcmində ifası mümkün olan qammalarda da arpecio yuxarıda göstərdiyim formada ifa ediləcək.**



**Digər I oktava həcmində ifası mümkün olan qammalarda da arpecio yuxarıda göstərdiyim formada ifa ediləcək.**


© Sübhan Köçərli

❖ **Müəllimin borcu – tələbəyə texnikanın məqsəd deyil, bir vasitə olduğunu öyrətməkdir. Lakin bu vasitənin vacib olduğunu yaddan çıxarmamaq lazımdır.**

❖ **Şagirdlərin qamma və akkordlar üzərində sistematik işləmələri, mexaniki sürət əldə etmək deyil, düşüncəli şəkildə aparılmalıdır.**

**Kövkəb Səfərəliyeva**

❖ **Səbəb boş deyilməz, gəl düşün bir az,**

**Yolu xəyal ilə süpürmək olmaz.**

**Nizami Gəncəvi**

❖ **Düşünmədən öyrənmək faydasız, öyrənmədən düşünmək təhlükəlidir!**

**Konfutsi**


© Sübhan Köçərli

# ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. "Uşaq musiqi və İncəsənət məktəblərinin qarmon sinfi üçün proqram". 2014. Səh: 8.

2. Abdullayeva S. "Azərbaycan çalğı alətləri dünyanı valeh edir". Bakı, "NURLAR" nəşriyyat – Poliqrafiya Mərkəzi, 2016. Səh: 68.

3. Bədəlbəyli Ə. "İzahlı monoqrafiq musiqi lüğəti". Elektron nəşr. Musiqi Dünyası, 2007.

4. Bədəlbəyli F. Rəcəbov O. Quliyeva N. Axundova Y. "Fortepianoda çalmaq üçün vəsait". Bakı, Çıraq, 2011.

5. Dadaşov X. "Qarmon məktəbi" (dərs vəsaiti). Bakı, "Şirvannəşr", 1999.Səh: 8,25,27,28.

6. Dadaşov X. "Qarmon məktəbi" (dərs vəsaiti). Bakı, "Şirvannəşr", 2004.Səh: 8.

7. Heydər Əliyev Fondu. "Muğam ensiklopediyası". Elektron nəşr. 2008.

8. Hacıyeva Ç. "Azərbaycan və Xarici ölkə bəstəkarlarının əsərləri" (dərslik). Bakı, "Mütərcim",2018. Səh: 3.

9. Köçərli S. "Azərbaycan qarmonunun solu: ifaçılıqda yeni üslub" (elmi məqalə). Bakı, Mədəniyyət jurnalı, 2020. səh 91.

10. Mirzəyev Z. "Qarmon məktəbi" (dərs vəsaiti). Bakı, "Adiloğlu", 2008. Səh: 32,33,34.

11. Nəcəfzadə A. "Xalq çalğı alətlərinin tədrisi metodikası" (dərs vəsaiti). Bakı, "MBM", 2007. Səh: 48.

12. Rəsulov N. "Qarmon məktəbi". Bakı, "Çaşıoğlu",1999. Səh: 4,25,28.

13. Rəhmanlı Ə. "Qarmon ifaçılığı sənəti və onun Azərbaycanda tədrisi". Bak,"Araz" nəşriyyatı, 2008. Səh: 10, 379.

14. Rəhmanlı Ə. "Qarmon ifaçılığı sənəti və onun Azərbaycanda tədrisi". II nəşr (əlavələrlə). Bak,"MBM" 2014. Səh: 695.

15. Sadıqov F. "Qarmon öyrənənlərə kömək" (metodik tövsiyələr). Bakı, Azərbaycan SSR Maarif Nazirliyi, Azərbaycan Elmi – Tədqiqat Pedaqoji Elmlər İnstitutu. 1986. Səh: 23.

16. Səfərəliyeva K. "Qamma və arpeciolar". Bakı, Azərbaycan Dövlət Nəşriyyatı. 1962, !974.

17. Səfərəliyeva K. "Qamma və arpeciolar". Bakı, İşıq nəşriyyatı. 1982.


© Sübhan Köçərli

# BALALARA HƏDİYYƏ

**QAMMALARIN İFA METODİKASI VƏ BARMAQ ARDICILLIĞI**
**Azərbaycan qarmon ifaçılığı və tədrisi tarixində ilk dəfə**
**(SAĞ VƏ SOL ƏL)**


*Nəşriyyatın direktoru:* *Ceyhun Xəlilov*
*Dizayner:* *Aygün Fərzəliyeva*
*Operator:* *Zülfiyyə Əliyeva*

AZƏRİ POLİQRAFİYA

*Çapa imzalanmışdır: 09.09.2021*
*Kağız formatı 70x100. Ofset çapı 1/16*
*Fiziki ç.v.5. Tiraj: 100*
*Ünvan: Sumqayıt şəh., 13-cü mkr. Niyazi küç.*
*E-mail: bilik-2008@mail.ru*
*Tel.: (012) 408 39 51; (018) 656 50 42*